**UOT 75.03**

**Telman İsmayıl oğlu İbrahimov**
**AMEA-nın Memarlıq və İncəsənət İnstitutu**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru**
**E-mail: artmen4@yandex.ru**

# RASİM BABAYEV BOYAKARLIĞINDA İSLAMİ QNOSİS (İRFAN) REFLEKSİYALARI

**Xülasə:** Azərbaycanın görkəmli rəssamı Rasim Babayevin yaradıcılığı daima özünün non-konformizmi ilə seçilirdi. Bununla belə, həyatının və yaradıcılığının müdriklik dövründə rəssamın yaradıcılığında yeni təmayüllər müşahidə olunmağa başladı. İsam dinin mənəviyyatı, əxlaq normaları, insan və cəmiyyət, cisim və ruh problemləri rəssam yaradıcılığında özünəməxsus bədii ifadə vasitələri ilə şərh olunmağa başlayır. Ruhanilik çağına qədəm qoymuş rəssam mənəvi kamillik axtarışlarını əz əsərlərində əks etməyə başlamışdır.

**Açar sözlər:** Rasim Babayev, Azərbaycan rəssamlığı, Adəm və Həvva, Xeyir və Şər, mistik xəttatlıq, islam irfani, irfan, zahir və batin

Azərbaycanın Xalq rəssamı Rasim Babayevin yaradıcılığı istər Sovetlər dönəmində, istərsə də, müstəqillik dövründə həyata sərbəst münasibəti ilə səciyyələnən bədii fenomen olmuşdur.

Hələ Sovetlər dövründə ideoloji və bədii sərbəstliyi ilə seçilən rəssam yaradıcılığı Azərbaycanın dövlət Müstəqilliyini əldə etdikdən sonra, daha da qabarıq şəkildə özünün non-konformistliyini təsdiq etmişdir. Eyni zamanda, həyatının müdriklik çağına qədəm qoymuş rəssamın yaradıcılığında islami dünyagörüşü, mənəvi dəyərləri tərənnüm edən əsərləri də getdikcə çoxalır. Qeyd etmək lazımdır ki, belə mövzu və motivlərə rəssam yaradıcılığının hələ erkən mərhələlərində ara-sıra rast gəlinirdi. Lakin, müdriklik çağında rəssamın dini etiqadı bir qədər də güclənir. Allaha ibadət və mənəvi paklıq durumu onun mənəvi və gündəlik həyatında əhəmiyyətli yer tutaraq, bədii yaradıcılığına da təsir etməyə başlayır. Bütün bunların nəticəsində islami mənəvi dəyərlərə öz əsərlərində bədii şərh verən rəssam bir sıra dini simvolizmli bədii obrazlar yaratmışdır.

Rəssamın yaradıcılığında nəzərə çarpan islami motiv və simvolların təhlili müəyyən etmişdir ki, rəssamı bu süjetlərin profanik diskurslar deyil, onların simvolik mənası daha çox maraqlandırmışdır. Xristian və Buddizm dinlərindən fərqli olaraq, islamda ALİ HİKMƏTƏ yiyələnmək yalnız şüur, zəka, məntiq vasitəsilə deyil, eyni zamanda – mistik yolla da gerçəkləşdirilə bilər. Rəssama görə, ali hikmətin dərk olunması və insan ruhunun öz

mənbəyinə (Allaha) qovuşması mənəvi təkamülün zirvəsi olmaqla, irfani halın təzahürüdür.

İlahi hikmətlərin İnsan tərəfindən mənimsənməsi yalnız söz müstəvisində deyil, vizual obrazlar müstəvisində də baş verir. Ali hikməti ifadə edən vizual motiv və simvollar daxili avto-kommunikasiya (özü-özü ilə əlaqə) prosesində mənimsənərək mənəvi və əxlaqi əqidələrə çevrilirlər.

Rasim Babayevin yaratdığı əsərlərinin bədii təhriki nəticəsində tamaşaçıda başlanan avto-kommunikasiya prosesi nəticəsində islami simvol və motivlər yeni məna və çalarlar əldə edərək daha güclü təsir edən obrazlara çevrilirlər. Rəssamı ilhamlandıran mənəvi və fəlsəfi düşüncələr sırasında – həyatın, insanın yaranması, insan həyatının məqsədi, fiziki cismin və ruhun aqibəti, əxlaq və mənəviyyatın məsuliyyət problemi və digərləri göstərmək olar.

Rasim Babayevin yaradıcılığında insanın fiziki və ruhi varlıqlarının vəhdəti, onların nisbəti və münasibətləri çoxsaylı “Adəm və Həvva” mövzusuna həsr olunmuş əsərlərdə nəzərə çarpmağa başlayır. İlk dəfə bu mövzuya rəssam 1985-ci ildə, 58 yaşında müraciət etmişdir və bundan sonra o yaradıcılıq boyu bu mövzuya dəfələrlə qayıdaraq, özünün ən pravokasion “Adəm və Həvva” mövzulu əsərlərini yaradır.

“Adəm və Həvva mövzusu İslam dini və onun müqəddəs kitabı olan “Quran”la bərabər, xristianların “İncil”ində və yəhudilərin “Tövrat”ında da öz əksini tapmışdır. Hər üç dini kitabda bu mövzunun əsas ideyasını “İNSAN NƏFSİ” və bu nəfs qarşısında tab gətirməyən insanın Allah tərəfindən cəzalanması fikri təşkil edir. Cismanilikdən doğan Nəfs və İlahilikdən doğan ruhanilik arasında daxili savaş. Ruhaniliklə dünyəvilik vəhdətinin nəfs nəticəsində pozulması problemi.

“Adəm və Həvva” süjeti Quranın “Əl-Bəqərə” və “Əl-Əraf” surələrində nəql olunaraq, bəzi fərqləri ilə diqqəti cəlb edir: Belə ki, “Əl-Bəqərə” surəsində Adəm və Həvvanın İblisə uyaraq qadağan olunmuş “meyvəni” yeməsi və bu hərəkətə görə cənnətdən qovulmaları vurğulandığı halda, “Əl-Əraf” surəsində təkəbbürlük günahı ideyası ön plana çəkilir və “ayıb” anlayışı təsbit olunur. Bu surənin 20-ci ayəsində deyilir: “Şeytan onların bir-birindən gizli qalan ayıb yerlərini özlərinə göstərmək üçün onlara pıçıldayıb dedi: “Rəbbiniz sizə bu meyvəni yalnız ona görə qadağan etmişdir ki, siz Cənnətdə əbədi qalanlardan olmayasınız”. Və bunun ardınca, 22-ci ayədə deyilir: “Beləliklə, şeytan onları aldadaraq Cənnətdən aşağı endirdi. Hər ikisi meyvədən daddıqda, ayıb yerləri özlərinə agah oldu və onlar Cənnət ağaclarının yarpaqları ilə ayıb yerlərini örtməyə başladılar”.

Rasim Babayevin “Adəm və Həvva” mövzulu əsərləri onu deməyə əsas verir ki, rəssam “Adəm və Həvva” mövzusuna müraciət edərkən, əsasən “Əl-Əraf” surəsindəki obrazdan bəhrələnmişdir. Rəssamın bu silsiləyə daxil etdiyi 9

əsərin hamısında Adəm və Həvva “ayıb yerlərini” əlləri ilə örtmüş vəziyyətdə təsvir olunmuşlar. Personajların bu hərəkəti onların “ayıb” hissi ilə səciyyələnən daxili halını və bundan irəli gələn təbii hərəkətlərini əks edir. “Ayıb”, “Ədəb”, Mərifət hisslərinin mənəvi dəyərlər sistemində yüksək qiymətləndirilməsi faktı rəssamın əsərlərində açıq-aşkar nəzərə çarpır.

Yaddan çıxarmayaq ki, rəssam bu silsiləyə ilk dəfə 80-ci illərin ikinci yarısından etibarən başlamışdır. Rəssamın həmin dövrdə bu mövzuya müraciətinin əsil səbəbini həmin illərdə cəmiyyətin sosial-mənəvi durumunda axtarmaq lazımdır. SSRİ-nin Baş katibi Mixail Qorbaçovun elan etdiyi “Aşkarlıq” (Qlasnost), “Yenidənqurma” (Perestroyka) islahatları siyasi, iqtisadi, sosial həyata təsiri ilə bərabər, illərlə formalaşan sovet ideologiyasının da süqutuna güclü təkan verdi.

90-cı illərdə isə söz və davranış “azadlığı” tendensiyası ifrat dərəcəyə çataraq, “ayıb” anlayışının mənəvi dəyərlər sistemində devalvasiyasına gətirib çıxardı. Sosial və fərdi mənəviyyatın, əxlaq normalarının kütləvi şəkildə devalvasiyası nəticəsində “ayıb”, “ədəb” anlayışları və onların əxlaqi-mənəvi tutumu özünün etik norma, etalon statusunu itirmiş oldu.

Rasim Babayevin təsəvvürlərinə və düşüncələrinə əsasən, onu əhatə edən bəzi insanlar “Adəm və Həvva” tək İblis fitnəsinə uyaraq, abır-həyalarını itiriblər. Cəmiyyətin həyatında getdikcə çoxalan ifrat azadlıq şüarlarında yüz illərlə formalaşmış islami əxlaq normaları köhnəlmiş və dəyərini itirmiş kimi qiymətləndirilməyə başlamışdır. Belə ictimai biganəlik şəraitində mənəvi və əxlaqi dəyərləri tərənnüm edərək, şəxsi məsuliyyət anlayışını yada salan “Adəm və Həvva” mövzulu əsərləri rəssamın ardıcıl müraciət etdiyi mövzulardan birinə çevrilir.

“Adəm və Həvva” silsiləsi və ona daxil olan əsərlərdən yalnız birində Adəm və Həvva “ayıb yerlərini” əlləri ilə örtməyən, açıq-saçıq vəziyyətdə təsvir olunmuşlar. Rəssamın bu əsərindəki personajlarda utancaqlıq hissinin əlamətləri belə yoxdur, onlar öz çılpaqlığından sanki qürur duyaraq, təkəbbürlük, mənəm-mənəmlik nümayiş edirlər. Bu insan həyasızlığı və təkəbbürlüyü obrazı rəssamın şəxsi müşahidələrində və həyat təcrübəsində rast gəlinən bəzi personajları əks edirdi. Heç də vacib deyildi ki, həmin personajlar Adəm və Həvva kimi “lüt” olsunlar. Sadəcə, onların davranışı, mənəviyyatı rəssam tərəfindən Adəm və Həvva əhvalatı kontekstində dəyərləndirilərək təsvir olunurdu. Real həyatda olan və abır-həya anlayışlarından məhrum olmuş belə adamlar rəssam təxəyyülündə əsatirləşərək növbəti “Adəm və Həvva”lara çevrilirdilər!

Rəssamın bu dövrdə yaratdığı əksər “Adəm və Həvva” əsərləri dairəvi formatda (çərçivədə) yaradılmışlar və bu heç də təsadüfi deyil. Adəm və Həvvanın təsvir olunduqları dairəvi format və onun çevrə şəkilində haşiyəsi

medalyon formasını və obrazını canlandıraraq, təsviri motivin yaddaşda əbədi xatirə, "medal kimi" qavranılmasını təmin etməli idi. Medal – əbədi xatirə nişanıdır.

Xristian ikonoqrafiyasından fərqli olaraq, rəssamın yaratdıqları "Adəm və Həvva"lar – şərqli, asiyalı antropoloji tiplərini əks edirlər. Adəm əksər halda qara-buğdayı, eşmə bığlı, Həvva isə – qara saçlı, çatma qaşlı və qaragöz sifət cizgiləri ilə səciyyələnirlər. Personajları özünün sosial mühitinin tipləri kimi təqdim etməklə, rəssam onları mücərrəd dini-mifoloji obrazlar sistemindən həmdövr həyata köçürür. Rasim Babayevin yaratdığı Adəm və Həvvalar Quran səhifələrində və ya yalnız təsəvvürlərdə yaşayan mifik personajlar deyil, artıq onlar həmdövr insan obrazlarını əks edirlər. Rasim Babayevin "Adəm və Həvva" mövzulu əsərləri Quranda təsbit olunmuş süjetin mənəvi-əxlaqi hikməti vasitəsilə müasir cəmiyyətin və fərdlərin mənəvi-əxlaqi durumuna təsir etməyə cəhdlərdir.

Sovetlər dövrünün sonlarında cəmiyyətin mənəvi, etik durumunda və əxlaqi dəyərlər sistemində "boşluqlar" getdikcə çoxalırdı. Uzun illər boyu Sovet vətəndaşına təlqin edilən süni "Sovet mənəviyyatı" və "Sovet əxlaqı" tədricən tam iflasa uğrayırlar. Həqiqi mənəvi dəyərlərə qayıdış və onların yenidən bərqərar olunması isə, hələ baş verməmişdir. Belə "mənəvi boşluqlar" haqda diskurs ilk növbədə yaradıcı ziyalıların əsərlərinin məzmun xəttini təşkil edirlər. Belə mənəvi, əxlaqi dayaqların axtarışları və onlara qayıdış ilə yaşayıb-yaradan sənətkarlardan biri də məhz Rasim Babayev olmuşdur.

Rəssamın 90-cı illərdə başladığı növbəti silsilə əsərlərini şərti olaraq, "Xeyr və Şər" mövzulu silsilə adlandırmaq olar. Rəssamın özü o əsərləri vahid silsilə kimi işləməmişdir. O bu motivə öz yaradıcılığında vaxtaşırı qayıdaraq, mövzunun müxtəlif etik çalarlarının bədii şərhlərini yaratmışdır.

"Xeyir və Şər" anlayışları islami mənəvi dəyərlərin mərkəzində duran etik dixotomiyadır (a dichotomy). Bu əksliklə (ikiliklə) səciyyələnən mənəvi paradiqma bəşəriyyətin yarandığı gündən indiyədək hər bir şəxsin əxlaqi-mənəvi dəyərlərini şərtləndirir. Bu paradiqmanın hansı qütbünün seçilməsindən asılı olaraq, hər bir şəxs özünün mənəvi və əxlaqi dəyərlər iyerarxiyası formalaşdırır. Dəyərlər sistemi və davranış stereotipləri isə, son nəticədə, şəxsin mənəvi və əxlaqi obrazını formalaşdırır. Rasim Babayev rəssam kimi, öz əsərlərində məhz belə obrazları təsvir vasitəsilə şərh edir.

Rasim Babayevin yaradıcılığında həmin illər ərzində yaranan çoxsaylı "Div", "Mələk", "Şeytan" obrazları da "Xeyir və Şər" etikasının personajları olmuşlar. Rəssamın çoxsaylı "div" obrazlarının yaranma səbəbini və mahiyyətini obyektiv şərh etmək məqsədi ilə, 2004-cü ildə rəssamın emalatxanasında bu sətirlərin müəllifi arasında baş vermiş bir dialoqu oxucuya çatdırmaq məqsədəuyğun olardı: "Rasim müəllim, siz artıq neçə illərdi çoxsaylı

div təsvirlərini yaradırsınız. Bəyəm real həyatda divlər var? Rəssamın cavabı: "Nə, bəyəm yoxdurlar? Ətrafımız onlarla doludur ki, görmürsən onları?" Rəssamın cavabında heç bir zarafat əlaməti yox idi, o çox ciddi idi. Bu dialoqdan sonra rəssamın "öz divlərini" həmdövr həyatdan "götürməsinə" məndə heç bir şübhə qalmadı.

Rəssamın bu dövrdə yaratdığı əsərlər sırasında çoxsaylı "ikiüzlü" insan obrazlarına da rast gəlinir. "Div"lərlə olduğu kimi, bunlar da "bir üzü mələk, digəri şeytan" anlayışının antropomorf obrazları idi. Belə "ikiüzlü" obrazlar rəssamın mənəvi-əxlaqi dəyərlərdən çıxış edərək insanları qiymətləndirməsindən irəli gəlirdi.

Rəssamın yuxarıda adını çəkdiyimiz "Xeyir və Şər" silsiləsində "Əjdaha" obrazları da xüsusi yer tutur. Qədim əsatir və nağıllarımızda özünə yer almış əjdaha simvolu türk dünyagörüşündə "xeyir-şər" anlayışının özünəməxsus, mifoloji ifadəsidir. Əcdadlarımızın dünyagörüşündə əjdaha qoruyucu, xeyirxah və ruzi-bərəkət gətirən simvol kimi qədimdən bərqərar olunmuşdur. Rəssamın bu obraza müraciəti əjdaha simvolunun talismanik təbiətə malik olmasından qaynaqlanır. Qeyd etmək lazımdır ki, divdən fərqli olaraq, əjdaha motivləri rəssamın əsərlərində daima müsbət obraz kimi çıxış edirlər. Eyni zamanda, əjdaha güc, qüdrət, hakimiyyət simvolu da olmuşdur. Rasim Babayevin əsərlərindəki əjdahalar qorxunc və nifrət doğuran obrazlar deyil, sadəlövh, xeyirxah və səmimi təbəssüm doğuran personajlar kimi əsərdə yaşayırlar.

Rasim Babayevin islami dəyərlərlə bağlı əsərləri sırasında üçüncü böyük silsiləni şərti olaraq "Mistik İslam xəttatlığı" adı altında birləşdirmək mümkündür. Məlum olduğu kimi, İslam dininin ehkamları əvvəl şifahi, sonra isə – yazılı şəkildə bərqərar olmuşlar. Quran sözünün özü belə "oxumaq", "qiraət etmək" deməkdir. Təsadüfi deyil ki, müqəddəs kitabı oxuyan və onun kəlamlarını qəbul etmiş insanlar məhz "Əhli-kitab" xalqları adlandırılmışdır. Bir sözlə, yazı və xüsusilə də ərəb qrafikalı yazı bu xalqlarda həmişə müqəddəs sayılmışdır. Təsadüfi deyil ki, Qurani yazı, söz və hərflərin yazılış qrafemlərində gizli və ilahi məna axtarmaq təşəbbüsü Hürufilik dini-fəlsəfi cərəyanında vaxtilə geniş yayılmışdır. Rasim Babayevin də Quran mənşəli sözləri özündə gəzdirən rəsm əsərlərini rəssamın gizli (ilahi) hikmət axtarışlarının nəticəsi kimi qiymətləndirmək olar. Belə əsərlər rəssamın yaradıcılığında özünəməxsus bədii ibadət növü olaraq, rəssamın irfani hikmət axtarışlarını əks edirlər.

Bildiyimiz kimi, İslam dünyagörüşünün qayəsini ezoterik, yəni mistik Vəh vasitəsilə yolu agah olunmuş ilahi hikmətlər təşkil edir. Quran vasitəsilə ifadə olunmuş ilahi söz və cümlələr – sadəcə işarələrdir. İnsanın bu işarələri nə dərəcədə və hansı həcmdə dərk etməsi – şəxsi mənəvi təkamül mərhələsindən asılıdır. Rasim Babayevin belə səpgili bədii axtarışları əksər halda boyakarlıq

vasitəsilə ifadə olunmuş mistik xəttatlıq praktikasını və eksperimentlərini xatırladır. Belə əsərlərdə rəssam Allahın gözəl adlarını, ayrı-ayrı ərəb hərflərini rəng qatlarında bəzən vizuallaşdırır, bəzən isə gizlədir.

Bununla belə, rəssamın bu səpgili əsərlərində onun bədii təxəyyülü və dini ekstazı da öz əkslərini tapırlar. Belə halda yaranan əsərlərin bəzilərində çətin və ya heç oxunmayan hərf və söz birləşmələri təsvirlərinə rast gəlinir.

Heç şübhə yoxdur ki, rəssam İslamın "zahir" və "batin", yəni – "aşkar olan" və "gizli olan" haqqında dini-fəlsəfi təlimlərdən xəbəri olmuşdur. Ehtimal etmək olar ki, rəssamın fiqurativ təsvir metodundan bilərəkdən imtina etməsi və mücərrəd kalliqrafiyaya üsuluna üstünlük verməsi müəllifin irfani axtarış və kəşflərinin təcəssümü idi. Belə əsərlər rəssamın daxili mənəvi durumunu təsvirli obrazlarla deyil, mistik yazı (söz) və hərflər vasitəsilə ifadə edirdi. Rəssamın öz əsərlərində ifadə etdiyi işarələrin "açılması" isə tamaşaçı sərəncamına verilirdi.

Məlum olduğu kimi, islam qnostisizminə əsasən Allah və Quran hikmətləri yalnız şüurla, məntiqlə deyil, ezoterik (batini) qavrayış və vəhy nəticəsində də mənimsənirlər. Və bu mənimsəmə prosesində ərəb qrafikası ilə yazılmış hərf, söz və mətnlərin xüsusi rolu var. Ərəb qrafikalı Quran mətnləri ilahi-mistik təsirə malik olduqlarından hərf və sözləri bilmədən belə, onların mahiyyətini ezoterik(vəhy) yolu ilə dərk etmək mümkündür. Yaddan çıxarmaq olmaz ki, ərəb qrafikalı yazı sistemi bilavasitə Quranın yazılması üçün yaradılmışdır. Ənənəyə görə ərəb hərfləri və Quran sözləri özü-özlüyündə ilahiliyin daşıyıcılarıdır. Bu ilahiliyin daşıyıcılarını öz əsərlərinə daxil edən rəssam avtomatik olaraq, yaratdığı əsərlərini də ilahiliyin daşıyıcısına çevirməyə cəhdlər edirdi.

Rasim Babayev özünün "mistik xəttatlıq"la sintez olunmuş boyakarlıq əsərlərində həmin hərflərin şərti, mücərrəd obrazlarını yaradaraq, onları mistik kəramətin daşıyıcısı qismində təqdim edir. Bildiyimiz kimi, islam ənənəsinə görə Quran mətnlərinin istənilən kağız parçası və ya digər bir əşya üzərində yazılması – onları islami diskurs daşıyıcısına və ya bu diskursun iştirakçısına çevirir.

Rasim Babayevin əsərlərində ilk baxışdan bəzək və ya mücərrəd dekorativ formalar kimi görünən ALLAHU ƏKBƏR (Təkbir) və digər sözlərlə bərabər, bəzi Quran surələrinin başlanğıcında rast gəlinən "Əlif", "Lam", "Mim" "Ra" və s. hərflərin də təsvirlərinə rast gəlinir. Belə hərf təsvirləri rəssam tərəfindən birqədər bədiiləşmiş və mücərrədləşmiş halda nəzərə çarpırlar. Bu hərflərin təsvirləri bəzi hallarda çətin oxunuşlu, bəzi hallarda isə – ümumiyyətlə oxunmaz hala salınmışlar. Belə hərfi işarələrin təsvirləri tamaşaçının qavrayışı zamanı mücərrədlikdən – hikmətə, hikmətdən isə kamilliyə transformasiyanı təmin edən mistik işarələr kimi təsvir olunmuşlar.

Bu transformasiya prosesində “İlahi vəhdət” paradiqmasının “zahir” və “batin” qütbləri vəhdət keyfiyyətini əldə edərək, ilahi hikmət, irfani (qnostik) biliyə yiyələnməni şərtləndirir.

Bildiyimiz kimi, Quran surələrinin əvvəlində yazılmış bu hərflər və onların ardıcıllığı Allahla insan arasında mistik və sirli əlaqə kodudur. Rəssam özünün əsərlərinə belə mistik, yazılı “şifrə”ləri daxil etməklə – əsərlərini “şifrələnmiş” ilahi kod daşıyıcısına çevirməyə cəhd etmişdir. Belə şifrələnmiş kodların açılması, dərk olunması və mənimsənməsi – tamaşaçının öhdəsinə buraxılmışdır.

Həyatının sonuna yaxın Allah hikmətlərinin dərkinə və mənimsənməsinə ciddi cəhdlər edən Rasim Babayev islam qnostisizminin yaratdığı “zahir” (aşkar olan, görünən, bilinən) və “batin” (gizli olan, görünməyən, bilinməyən) anlayışlarını dini-fəlsəfi müstəvidən – bədii müstəviyə keçirərək aşkar olanla (insan) – gizli olan (Allah) arasında bədii körpülər yaratmağa çoxsaylı cəhdlər etmişdir.

**Ədəbiyyat siyahısı:**


1. Бестужева С. Расим Бабаев. Размышления. «Советский художник» М.1979
2. Nəcəfov M. Azərbaycan SSR-nin İncəsənəti. “Аврора”, 1971
3. Изобразительное искусство Азербайджанской ССР, «Советский художник», М. 1978
4. Rasim Babayev. “Sərvət” Bakı 2013
5. İbrahimov T. Rasim Babayev yaradıcılığı “Xeyir və Şər” etik kateqoriyaların təcəssümü kimi
6. https://www.academia.edu/34945718/Rasim_Babayev_yarad%C4%B1c%C4%B1l%C4%B1%C4%9F%C4%B1_


**Тельман Исмаил оглы Ибрагимов**

**РЕФЛЕКСИИ ИСЛАМСКОГО ГНОЗИСА (ИРФАН) В ЖИВОПИСИ РАСИМА БАБАЕВА**

**Резюме:** Живопись азербайджанского художника Расима Бабаева всегда отличалась своим нон-конформизмом. У художника, вступившего в период жизненной мудрости, возникают новые творческие поиски, направленные на художественное отражение духовного состояния автора. Духовные поиски со временем, трансформировались в богоискательство. Живопись художника в контексте богоискательства отражает постулаты исламского гнозиса, выраженные в живописно-пластических формах.

**Ключевые слова:** Расим Бабаев, азербайджанская живопись, Адам и Ева, Добро и Зло, мистическая каллиграфия, исламский гнозис, Ирфан, Захир и Батин.

**Telman Ismayıl oğlu Ibrahimov**

## REFLECTIONS OF ISLAMIC GNOSIS (IRFAN) IN PAINTING BY RASIM BABAYEV

**Summary:** The painting of the Azerbaijani artist Rasim Babayev has always been distinguished by its non-conformism. The artist, who has entered the time of vital wisdom, has new creative searches aimed at artistic reflection of the spiritual state of the author. Spiritual search over time, transformed into God-seeking. The artist's painting in the context of God-seeking reflects the postulates of Islamic gnosis, expressed in pictorial and plastic forms

**Key words:** Rasim Babayev, Azerbaijan Painting, Adam and Eve, Good and Evil, Mystical calligraphy, Islamic gnosis, Irfan, Zahir and Batin

**Məqalənin redaksiyaya daxil olma tarixi: 09.09.2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**